UOT 338.32

*Elvin Vaqif oğlu HÜSEYNOV,*
*Asya Xalid qızı MEHBALIYEVA*
*Azərbaycan Kooperasiya Universiteti*
*e19830701@gmail.com*

# REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR QƏBUL EDİLMİŞ DÖVLƏT PROQRAMI REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏKANVERİCİ AMİLİ KİMİ

*Xülasə*

**Tədqiqatın məqsədi** 11 fevral 2004-cü ildə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”-nı həmin dövrdə və sonrakı illərdə regionların sosial-iqtisadi inkişafını şərtləndirən amil kimi müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası.**Tədqiqat işində məntiqi ümumiləşdirmə, sistemli yanaşma, təhlil və sintez metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** 11 fevral 2004-cü ildə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”nın və eləcə də sonrakı illərdə qəbul edilmiş, icra olunmuş və hal-hazırda icra olunmaqda olan proqramların regionların sosial-iqtisadi inkişafına təkan verdiyini sübut edərək onların əhəmiyyətini vurğulamaq, qiymətləndirib və beləliklə də bu proqramların Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafının təmin olunmasında həlledici rolunu əsaslandıraraq, sonrakı illərdə regionların davamlı inkişafının təmin olunması üçün bu proqramların ardıcıl və davamlı olaraq qəbul edilməsi və yerinə yetirilməsi prosesinə dəstək vermək ola bilər.

**Tədqiqatın nəticələri.** Tədqiqat nəticəsində 11 fevral 2004-cü ildə qəbul edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”nın regionların sosial-iqtisadi inkişafına təkan verdiyi və doğrudan da regionların güclü inkişaf etdirilməsinə səbəb olması aşkar edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi.** Tədqiqat işinin orijinallığı məhz uzun illər keçdikdən və bugünkü günümüzdə o qədər də əhəmiyyət verilməyən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə qəbul edilmiş və icra olunmuş ilk Dövlət Proqramının təkanverici əhəmiyyətinin ortaya çıxarılmasıdır. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, pandemiya dövründə regionların sosial-iqtisadi inkişafının retrospekriv təhlili aparılmış və bu cür proqramların ölkə iqtisadiyyatı üçün önəmi aşkarlanmışdı.

***Açar sözlər: regionlar, sosial-iqtisadi inkişaf, regionların proporsional inkişafı, qeyri-neft sektoru, xarici sərmayələr, kənd təsərrüfatı, infrastruktur.***

## *Giriş*

Azərbaycan iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri də regionların iqtisadi inkişafına təkan verməkdir. Çünki ölkənin iqtisadi tərəqqisi bunu tələb edir. Belə ki, Azərbaycan regionları kifayət qədər potensial imkanlara malikdir. Ancaq onların bu imkanlarının reallaşması üçün bölgələrə investisiyaların təşviqi gərəkdir. Ümummilli Lider Heydər Əliyev regionlarda iqtisadi inkişafa əhəmiyyət verdiyi üçün rasional bir iqtisadi inkişafın əsasını qoydu. Bu kurs Prezident İlham Əliyev tərəfindən davam etdirildi. Azərbaycan Respublikasında son on ildə həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində ölkədə makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına

və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir. Bu istiqamətlərdə tədbirlərin həyata keçirilməsi regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə yanaşı, onların iqtisadi gücünü artırar və sosial problemlərin həllini sürətləndirər.

**2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş Proqramın qəbul edilməsi zərurəti**

Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədi ilə 11 fevral 2004-cü ildə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)” təsdiq edildi [4]. Proqrama görə Azərbaycan Respublikasının Nazirlər Kabineti, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları Dövlət Proqramının icrasını təmin edən zəruri tədbirlər görməli oldu. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi və regionlara investisiyaların cəlb edilməsi məqsədilə beynəlxalq maliyyə institutları, xarici ölkələrin dövlət orqanları və iş adamları ilə müvafiq danışıqlar aparmaqla vəzifələndirildi. Azərbaycan Respublikası prezidentinin müvafiq fərmanında göstərilirdi ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

2004-2008-ci illərdə aparılan siyasət bu prosesi daha da sürətləndirir Ümummilli liderimiz Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi xalqın yaşayış səviyyəsinin yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına əsaslı zəmin yaratmışdır. Dövlət başçısı İlham Əliyev sosialyönümlü tədbirlərin daha da genişləndirilməsinə xüsusi diqqət yetirdi.

Eyni zamanda, dövlət başçısı İlham Əliyev sahibkarlıqla bağlı keçirilən bütün tədbirlərdə sahibkarların ən yaxın himayədarı olduğunu xüsusi olaraq vurğulamışdır. Prezidentin xüsusilə regionların inkişafı istiqamətində atdığı addımlar ölkənin siyasi, hüquqi, iqtisadi, sosial və digər sferalarda beynəlxalq əlaqələrinin genişlənməsinə, qloballaşan dünyada etibarlı tərəfdaş kimi mövqelərini möhkəmləndirməsinə yaradılan etibarlı zəmindir.

2003-cü ilin sonlarından bəri respublikada 500 mindən çox yeni iş yeri açılmış, yüzlərlə təhsil, səhiyyə, mədəniyyət obyektləri tikilmiş, yoxsulluq həddi 49 faizdən 29 faiz səviyyəsinə endirilmiş, əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi üçün real resursların dayanıqlı mənbəyi yaradılmışdı [6, 3].

Bu irəliləyişlərin əldə edilməsində özəl sektorun regionlarda investisiya qoyuluşları da böyük rol oynadı. Azərbaycanın iqtisadi inkişafının yeni mərhələsi qeyri-neft sektorunda regional iqtisadi müəssisələrin önə çıxması ilə xarakterizə olunur. Azərbaycan Prezidenti ölkənin sosial-iqtisadi tərəqqisində özəl sektorun, sahibkarların rolunu çox düzgün dəyərləndirdi. Sərbəst bazar iqtisadiyyatı münasibətlərinin fəal tərəfdarı kimi çıxış edən İlham Əliyev iqtisadi inkişaf prosesində sahibkarlığın rolu barədə əsaslı konsepsiya irəli sürdü. Hakimiyyətə gəlişinin ilk günlərindən yerli və xarici sahibkarların qüdrətli hamisinə çevrilmiş dövlət rəhbərinin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına Azərbaycanda qeyri-neft sektoru yeni inkişaf dönəminə qədəm qoymuş, sahibkarlığın inkişafına diqqət daha da artırılmışdır.

**Regionların inkişafına dair Dövlət Proqramında görülməsi nəzərdə tutulan işlər**

Regionların inkişafına dair Dövlət Proqramı konkret bir sıra işlərin görülməsini nəzərdə tuturdu. Proqramda qeyd edilirdi ki, Azərbaycan Respublikası XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş vermişdir. 1993-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət müstəqilliyin ilk illərində ölkədə baş alıb gedən siyasi və iqtisadi böhranı aradan qaldırmış, Azərbaycanın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş yol açmışdır [1]. Ölkədə ardıcıl aparılan

islahatlar 90-cı illərin birinci yarısında iqtisadiyyatda mövcud geriləməni dayandırmış və yeni inkişaf mərhələsinə keçidi təmin etmişdir. Həyata keçirilən siyasət çox qısa bir zaman ərzində iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur: inflyasiya cilovlanmış (1996-cı ildən başlayaraq Azərbaycanda inflyasiyanın səviyyəsi 2-3 faizdən yuxarı qalxmır), büdcə kəsiri ümumi daxili məhsulun 1-2 faizi səviyyəsinə endirilmiş, 1996-cı ildə makroiqtisadi sabitliyə nail olunmuş, 1997-ci ildən başlayaraq isə dinamik iqtisadi inkişafı təmin etmək mümkün olmuşdur. 1996-cı ildə ümumi daxili məhsulun artım sürəti 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-2003-cü illərdə isə orta hesabla 10,0 faiz təşkil etmişdir. Azərbaycan Respublikasında aparılan ardıcıl və sistemli iqtisadi islahatların mühüm nəticələrindən biri dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması yolu ilə iqtisadiyyatı inkişaf etdirmək və əhalinin güzəranını yaxşılaşdırmaq olmuşdur. Belə ki, ölkədə artıq torpaq islahatları faktiki olaraq başa çatmış, 1390 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanmışdır. Hazırda kənd təsərrüfatı məhsulunun 99 faizi özəl bölmədə istehsal olunur. İqtisadiyyatın digər sahələrində də dövlət mülkiyyətinin özəlləşdirilməsi uğurla həyata keçirilmişdir. Özəlləşdirmə prosesi başlayandan 2003-cü ilin sonuna qədər 36200 kiçik müəssisə və obyekt özəlləşdirilmiş, II özəlləşdirmə proqramı çərçivəsində isə rabitə, nəqliyyat, kimya, maşınqayırma, yanacaq - energetika kompleksinin və digər sahələrin müəssisələrinin özəlləşdirilməsinə başlanmışdır. Sahibkarlığın inkişafı ilə əlaqədar görülən işlər nəticəsində ümumi daxili məhsulda qeyri-dövlət sektorunun xüsusi çəkisi 1995-ci ildəki 30 faizdən 2003-cü ildə 73,0 faizə çatmışdır. Əməkhaqlarının, pensiyaların və müavinətlərin artırılması, əhalinin sosial müdafiəsi istiqamətində aparılan ardıcıl siyasət son illər ölkədə həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin etmişdir. 1995- 2003-cü illərdə orta aylıq əməkhaqqı və pensiyanın məbləği 6 dəfədən də çox artmışdır. Yuxarıda qeyd olunan nailiyyətlərlə yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində hələ də həll edilməmiş problemlərin mövcudluğu bu sahədə xüsusi dövlət proqramına ehtiyac hiss etdirdi. Azərbaycanın sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərin əksər hissəsinin Bakı şəhərində yerləşməsi və eyni zamanda, regionlarda olan bir çox müəssisələrin, istehsal və xidmət obyektlərinin fəaliyyətinin zəifləməsi və ya tamamilə dayanması əhalinin ölkə paytaxtına axınını sürətləndirmişdir. Bu amillər öz növbəsində iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərmiş, regionların inkişafı arasında fərqin artmasına, bir çox yerlərdə sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətin ağırlaşmasına səbəb olmuşdur. Azərbaycan Respublikası regionlarının inkişafında müşahidə olunan vəziyyət mövcud potensialdan səmərəli istifadə etməklə regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini və onlar arasında fərqin minimuma çatdırılmasını tələb edirdi. Yuxarıda qeyd olunanları nəzərə alaraq, hazırlanmış “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda 2004-2008-ci illərdə ayrı-ayrı rayonlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətləri müəyyən edilmişdir. Dövlət Proqramının əsas məqsədi Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır [5]. Dövlət Proqramında aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdu:

- müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq;
- yerli resurslardan istifadənin səmərəsini artırmaq;
- regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək;
- aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarda fermerlərə və digər kənd təsərrüfatı işçilərinə kömək məqsədilə müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək;

– investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;
– yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək;
– əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq.

**Regionların proporsional sosial-iqtisadi inkişafı**

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında da orta sahibkar təbəqəsinin daha da güclənməsi və cəmiyyətin bir növ aparıcı təbəqəsinə çevrilməsi sahəsində əməli tədbirlər nəzərdə tutulmuşdur. İlham Əliyev güclü və sabit orta təbəqənin yaradılmasını həmişə dövlətin iqtisadi siyasətinin əsas prioritetlərindən biri kimi dəyərləndirmişdir. Məhz bu təbəqə cəmiyyətdə balans yaradaraq kəskin sosial təbəqələşməni aradan qaldırır və ümumi inkişafda harmoniya yaradır.

Fermer təsərrüfatlarının inkişafı, fermerlərə uzunmüddətli kreditlərin verilməsi kimi zəruri məsələlər də diqqətdən qaçırılmamışdır. Dövlət Proqramı regionların inkişafına xidmət etməklə yanaşı, həm də yerlərdə infrastrukturun yeniləşməsini, nəqliyyat-kommunikasiyaların bərpasını, habelə elmi-texniki tərəqqini, mədəni yüksəlişi, müasir informasiya texnologiyalarının tətbiqini sürətləndirmişdir.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramında nəzərdə tutulmuş məsələlərin düzgün həyata keçirilməsi nəticəsində artıq regionların inkişafında dinamiklik təmin edilmiş, sosial-iqtisadi problemlərin aradan qaldırılması, yeni istehsal müəssisələrinin inkişafı istiqamətində zəruri addımlar atılmışdır. Sosial-iqtisadi inkişaf və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi istiqamətində atılan uğurlu addımların məntiqi nəticəsi olaraq Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələrdən birinə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev bu fəaliyyət sənədinin ölkə iqtisadiyyatının inkişafındakı müstəsna əhəmiyyətini belə qiymətləndirir: “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsiri çoxşaxəlidir. Bunun həm siyasi, həm iqtisadi, həm də sosial mənası çox böyükdür. Mən çox şadam ki, bu üç il ərzində görülən işlər, doğrudan da, Azərbaycanın regionlarının inkişafına yenilik gətirdi. Regionda fəaliyyət göstərən insanlar çox fəaldırlar. Azərbaycan əhalisinin əksəriyyəti regionlarda yaşayır. Belə olan halda, biz diqqətimizi daha da artırmalıyıq, onlara hərtərəfli dəstək verməliyik”.

Regionların sosial-iqtisadi İnkişafı Dövlət Proqramına uyğun olaraq ayrı-ayrı rayonlarda (bölgələrdə) sahibkarlığın bütün növlərinin formalaşmasına xüsusi diqqət yetirilir. Xüsusilə, bir sıra rayonlarda istehsal sahibkarlığının inkişafına daha çox sərmayə yönəldilmişdir. Belə ki, dövlət büdcəsi hesabına həyata keçirilən proqramlarda regionların xüsusi ÇƏKİSİ durmadan artır. Təkcə 2006-cı ildə dövlət investisiya xərclərində regional layihələrin həyata keçirilməsinə ayrılan vəsaitin ümumi məbləği 2005-ci ildəkindən 6 dəfə çox olmuşdur. Regional investisiya layihələrinə uyğun olaraq aşağıdakı irimiqyaslı işlər yerinə yetirilmişdir. Onlara: Səngəçalda modul tipli elektrik stansiyası, Oğuz-Qəbələ-Bakı su kəmərinin, Yuxarı Mil Kanalının, Tovuzçay və Şəmkir su anbarlarının çəkilməsi, Yevlax-Zaqatala-Gürcüstan avtomobil yolunun inşası, Lənkəran və Zaqatala hava limanlarının yenidən qurulması və bir sıra başqa layihələr aiddirlər. Bunlarla yanaşı 2006-cı ildə İmişlidə şəkər zavodu, Lənkəran və Salyanda süd emalı zavodları, Lənkəranda tikiş fabriki, Gəncədə “Yardım Royal” şokolad fabriki, Sumqayıtda “AzKompozit” Boru istehsalı zavodu və digər müəssisələr fəaliyyətə başlamışdır. 2007-ci ildə əhalinin məşğulluq problemində xeyli dərəcədə irəliləyiş baş vermişdir. Xüsusilə, 2003-cü ilin oktyabr ayından bu günə qədər 536 min yeni iş yeri açılmışdır ki, bunun da 83 faizi regionların payına düşür. Regionların əksəriyyətində yeni müəssisələr açılır, yollar çəkilir, sosial infrastruktur sistemi formalaşır. Regional sahibkarlığın inkişafı şəhərlə kənd arasında sosial-iqtisadi fərqlərin aradan qaldırılmasında mühüm rol oynayır.

**Regionlara yönələn xarici investisiyaların artması**

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycanda həm yerli, həm də xarici iş adamlarının fəaliyyəti üçün münbit şərait mövcuddur. Özəl sektorun inkişafı, halal yolla maddi imkanlarını artıran vətəndaşların sayının artması dünyanın bütün demokratik ölkələrində olduğu kimi, Azərbaycan cəmiyyətində də sabitlik və tərəqqinin, demokratikləşmə prosesinin hərəkətverici qüvvəsi sayılan milli burjuaziyanın, orta təbəqənin əhatəsini genişləndirir.

Azərbaycana xarici sərmayələrin cəlbi baxımından ötən üç ildə xarici dövlətlərin rəsmi və işgüzar dairələrinin iştirakı ilə keçirilən biznes forumları da mühüm əhəmiyyət kəsb edir. 2004-2008-ci illərdə Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə iştirakı ilə Böyük Britaniya, İtaliya, Çin, Rusiya, Latviya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdə təşkil olunmuş biznes forumları ölkəmizin qeyri-neft sektoruna xarici sərmayələrin təşviqini təmin etməklə bərabər, istehsal olunan çeşidli məhsulların ixracat bazarlarına çıxış imkanlarını xeyli dərəcədə genişləndirmişdir. Sahibkarlarla dövlətin qarşılıqlı faydalı əməkdaşlığının təşəbbüskarı olan Prezident İlham Əliyev xarici ölkələrə yüksək səviyyəli səfərlərində iş adamlarının da iştirakını təmin edir. Bu isə yerli sahibkarlara müxtəlif dövlətlərin işgüzar dairələri ilə yaxından tanış olmaq, ölkə iqtisadiyyatının inkişafı naminə onlarla müəyyən sazişlər imzalamaq imkanı yaradır.

Regionların sosial-iqtisadi İnkişafı Dövlət Proqramının tələblərinə uyğun olaraq regional sahibkarların inkişafı üçün xarici və yerli investorların və beynəlxalq maliyyə təşkilatlarının imkanlarından daha səmərəli istifadə olunması nəzərdə tutulur. Bu məqsədlə 2006-cı ildə Azərbaycan iqtisadiyyatına bütövlükdə təxminən 7 milyard dollar sərmayə qoyulmuşdur. Bu dövrdə sahibkarlığın inkişafında ölkədaxili investisiyalar daha çox üstünlük təşkil etmişdir. Respublikadaxili investisiyalar hesabına Azərbaycanda yerli sahibkarların fəaliyyəti daha da güclənmiş və geniş miqyaslı işlər görülmüşdür. Yerli sahibkarlara ildən-ilə dövlət dəstəyinin artması nəticəsində Azərbaycanda güclü sahibkarlar təbəqəsi yaranmışdır. Həmçinin onların səmərəli və məqsədyönlü fəaliyyəti hesabına ölkədaxili investisiyaların artımı baş vermişdir. Dövlət Proqramının icrası ilə əlaqədar olaraq 2006-cı ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları vasitəsilə respublikanın 59 şəhər və rayonunda 1771 investisiya layihəsinin maliyyələşdirilməsinə 90,1 milyon manat güzəştli kredit verilmişdir.

**Regionların sosial-iqtisadi inkişafı: müasir vəziyyət və yekunlar**

Əlimizdə olan son məlumatlara görə 2019-cu ildə iqtisadiyyat 2,2 faiz artmışdır. Neftin qiyməti sabit olub, ancaq Azərbaycanda neft hasilatı bir qədər aşağı düşüb. Ümumi daxili məhsul 2,2 faiz artmışdir. Xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb. Bunun da səbəbi məhz neftin hasilatı ilə bağlıdır. Ancaq əsas prioritet olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, əlbəttə ki, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb.

İslahatların uğurlu aparılması nəticəsində, keçən il 98 min yeni iş yeri yaradılıb, son illərin rekord göstəricisi– valyuta ehtiyatlarımızın 6,4 milyard dollar artması qeydə alınıb. Yanvar ayı da nəzərə alınsa, Azərbaycanın valyuta ehtiyatları artıq 52 milyard dollara çatıb. Son bir il ərzində respublikanın sosial-iqtisadi sahələrinə 13,5 milyard dollar sərmayə qoyulub. Makroiqtisadi vəziyyət sabit qalıb, inflyasiya 2,5 faiz, əhalinin gəlirləri isə 7,4 faiz təşkil edib. Başqa sözlə, həmişə olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyib.

Ötən il ərzində inqilabi xarakterli sosial islahatlar gerçəkləşdirilib. Bu isə çox geniş sosial paketi həyata keçirməyə imkan yaradıb. Həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket indiyədək reallaşmayıb. Azərbaycan sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsipi tətbiq edib və bu sahədə də MDB məkanında birinci olub.

Ötən il həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə edib və vətəndaşların maddi vəziyyəti yaxşılaşıb. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər isə 2 dəfə artırılıb.

Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması prioritet məsələ kimi diqqətdə saxlanılıb. Sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib. Keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim edilib. Şəhid ailələri və Qarabağ əlilləri üçün cari il daha çox ev tikiləcək. Belə ki, bu kateqoriyadan olan şəxslərə 1500 mənzil verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardımla bağlı 70 faiz artım baş verib, bu proqram hazırda 72 min ailəni əhatə edir.

Diqqətə çatdıraq ki, dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün zəmin yaratmışdır. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının qəbulundan əvvəlki 2003-cü illə müqayisədə 2020-ci ildə regionlar üzrə vergi daxilolmaları 23,2 dəfəyə yaxın artıb.

**2004-2008-ci illər regionların sosial-iqtisadi inkişafına dair qəbul edilmiş Proqramın iqtisadiyyatın inkişafında xüsusi roluna dair Prezident İlham Əliyevin fikirləri**

Dövlət proqramının qəbulundan bir il keçdikdən sonra artıq onun nəticələri hiss olunmağa başladı [2, 4]. Dövlət başçısı regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının üç illiyinə həsr edilmiş konfransda da kiçik və orta sahibkarlığın inkişafına maneə olan bəzi məsələlərdən ətraflı söz açmış, onların tez bir zamanda aradan qaldırılmasının vacibliyini vurğulamışdır [3, 2]. İlham Əliyev hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə əsassız müdaxilə cəhdlərinə hələ də rast gəlindiyini, əsassız tələblərin irəli sürüldüyünü bildirmiş, belə hallara yol verənlər barəsində ciddi ölçülərin götürüləcəyini qeyd etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdi. Bu iclasda Azərbaycan Respublikası prezidentinin çıxışında Azərbaycanda iqtisadi islahatlar nəticəsində əldə olunan uğurlar göstərilmişdi. Prezident qeyd etmişdi ki, 2008-ci il də Azərbaycan iqtisadiyyatı üçün uğurlu başlanmışdır. Bildiyiniz kimi, son dörd il ərzində, 2004-2007-ci illərdə ölkə iqtisadiyyatı 96 faiz artmışdır. Azərbaycanın büdcəsi ildən-ilə artır, 2008-ci ilin büdcəsi 12 milyard dollar səviyyəsindədir. Bu, 2003-cü illə müqayisədə on dəfə çoxdur. Bu günə olan məlumata görə, Azərbaycanın valyuta ehtiyatları 9 milyard dollar həcmindədir. Azərbaycan Prezidenti İlham Əliyevin sözlərinə görə diqqət mərkəzində olan başqa ciddi məsələ iqtisadiyyatın qeyri-neft sektorunun inkişafıdır. Qeyri-neft sektorunun inkişafı üçün birinci rübdə çox mühüm hadisələr olmuşdur. İki böyük sənaye müəssisəsinin – Gəncədə alüminium və polad komplekslərinin təməli qoyulubdur. Bir milyard dollar həcmində investisiya qoyulacaq və özəl sektor tərəfindən icra olunacaq bu layihələrin başa çatması ilə Azərbaycanda yeni sənaye sahələri yaradılacaqdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bildirmişdir ki, biz bütövlükdə iqtisadiyyatın sənayeləşməsinə ciddi fikir veririk. Bu sahədə həm özəl sektor tərəfindən, həm dövlət dəstəyi ilə – Dövlət İnvestisiya Şirkəti tərəfindən nəzərdə tutulan layihələr öz müsbət rolunu oynayacaqdır. Qeyri-neft sektorunun inkişafı üçün gələcəkdə nə lazımdırsa, o da ediləcək. Güzəştli kreditlər davam etdiriləcəkdir. Bu vaxta qədər verilən güzəştli kreditlər artıq bir neçə ildən sonra qaytarılmağa başlayacaq və bunun nəticəsində bizdə, təxminən 300-500 milyon dollar həcmində daimi vəsait olacaqdır. Biz bir neçə ildir ki, güzəştli kreditləri veririk, amma onları hələ ki, geri götürmürük. Çünki onlar 5, yaxud da ki, 7 il müddətinə verilir və bu kreditlərin verilməsi maliyyə məqsədləri daşımır. Biz bunu ona görə vermirik ki, dövlət pul qazansın. Ona görə veririk ki, iş görülsün. Ancaq bir neçə ildən sonra, – indi bunu yəqin ki, hesablayacaqlar, – bu kreditlər tam şəkildə qayıdandan sonra hər il dövlət büdcəsindən əlavə vəsaitin ayrılmasına ehtiyac qalmayacaqdır. Bu böyük məbləğ, 300-500 milyon dollar hər il yeni sənaye sahələrinin yaradılmasına, biznes şəraitinin yaxşılaşmasına kömək göstərəcəkdir.

***Nəticə***

Beləliklə, onu demək olar ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin regionların inkişafına dair yürütdüyü siyasət və regionların sosialı inkişafına dair 2004-2008-ci illərrdə qəbul edilmiş dövlət proqramı regionların sonrakı inkişafının əsasını qoymuş oldu. İlk dövrlərdə əsasən mərkəzdə fəaliyyət göstərməyə üstünlük verən xarici və yerli investorlar daha sonra regionların potensialından yararlanmağı qərara aldılar. Ümumiyyətlə regionların qeyri-bərabər inkişafının

qarşısı müəyyən qədər alınmışdır. Regionlarda ümumi məhsul istehsalı xeyli artmış və əhalinin rifah halı yüksəlmişdir. Çünki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı Regionların Sosial-İqtisadi İnkişafına dair 2004-2008-ci illər üçün qəbul edilmiş Dövlət Proqramı regionların sonraki illərdə də sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə imkan vermişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin Andiçmə mərasimində nitqi – 31 oktyabr 2003-cü il. “Azərbaycan” qəzeti, Bakı, 2003, 1 noyabr.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının bir illiyinə həsr olunmuş konfrans: Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi. “Xalq qəzeti”, Bakı, 2005, 12 fevral (№33), s.4
3. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclası keçirilmişdir: Maliyyə naziri Samir Şərifovun çıxışı. “Xalq qəzeti”, Bakı, 2009, 17 yanvar (№12), s.4
4. Cəfərli E. Regionların inkişafı ilə bağlı yeni Dövlət Proqramının icrasına başlanılıb. “Yeni Azərbaycan” qəzeti, 2009, 27 may.
5. Əliyev, İ. Məqsədyönlü dövlət tənzimlənməsi sürətli inkişafın əsasıdır. “Xalq qəzeti”, 20 iyul 2006-cı il.
6. Şəkərəliyev, A. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət Azərbaycan xalqı tərəfindən tam dəstəklənir. “Xalq qəzeti”, Bakı, 2009, 05 aprel 2009, s.3.



***Эльвин Вагиф оглы Гусейнов,***
***Ася Халид кызы Мехбалыева***
***Азербайджанский Университет Кооперации***
***e-mail: e19830701@gmail.com***


## Государственная программа социально-экономического развития регионов как стимул социально-экономического развития регионов


***Резюме***

**Цель исследования -** оценить роль цифровой деятельности в обеспечении развития регионов в условиях современной рыночной экономики, определить направления ее эффективного развития.

**Методология исследования** – базируется на системном и комплексном анализе. Применен научный подход к оценке деятельности. Изучаются и оцениваются позиции различных авторов, изложенных в научных работах.

**Прикладная значимость исследования** – заключается в том, что полученные в ходе исследования результаты, выдвинутые предложения могут быть использованы для совершенствования механизмов развития и управления экономикой регионов. ,

**Результаты исследования -** оценка новых подходов к формированию и развитию социально-экономического развития регионов, разработка эффективных рекомендаций и предложений.

**Оригинальность и научная новизна работы** – состоит в том что исследован потенциал развития регионов, проведена оценка позиций различных авторов к существующим проблемам. В статье проанализировано текущее состояние цифровизации в аграрной сфере, выдвинуты предложения и рекомендации по решению возникших проблем.



***Ключевые слова: предпринимательство, экономическое регулирование, экономические реформы, экономическое развитие, национальная экономика, инвестиции, регион.***

***Elvin Vagif oglu Huseynov,***
***Asya Xalid Mehbalıyeva***
***Azerbaijan Cooperation University***
***e-mail: e19830701@gmail.com***

**State programs on socio-economic development of the regions stimul for the socio - economic development of the regions**

***Summary***

The purpose of the study - The State Program for Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan (2004-2008) of February 11, 2004 defines the period and subsequent years as a factor determining the socio-economic development of the regions.

The methodology of the research is based on systematic and complex analysis, methodological approaches to the assessment of digitalization activities in the agricultural sector and important principles of international experience in this area, scientific provisions in the scientific works of various researchers.

The practical importance of the research - The implementation of the State Program on Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan (2004-2008) on February 11, 2004, as well as the social programs of the regions adopted, implemented and currently being implemented in subsequent years. - Emphasize the importance of these programs, proving their impetus to economic development, and thus support the process of consistent and sustainable adoption and implementation of these programs to ensure sustainable development of the regions in the coming years, justifying the crucial role of these programs in ensuring the socio-economic development of the regions of Azerbaijan. can give.

The results of the research - As a result of the research, it was found that the “State Program of Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan (2004-2008)” adopted on February 11, 2004 stimulated the socio-economic development of the regions. It was found that the adopted programs directly contribute to the strong development of the regions.

Originality and scientific novelty of the research - The originality of the research was to reveal the impetus of the first State Program on socio-economic development of the regions of the Republic of Azerbaijan, which has been adopted for many years and is not so important today. The scientific novelty of the article is that a retrospective analysis of the socio-economic development of the regions during the pandemic was conducted and the importance of such programs for the country's economy was revealed.

***Key words: entrepreneurship, economic regulation, economic reforms, economic development, national economy, investment, region.***